**“Cinayət hüququnun aktual problemləri” adlı elmi məqalələr Məcmuəsi. Bakı Dövlət Universiteti, Cinayət hüququ və kriminologiya kafedrası, 5 dekabr 2022. 440 s. səh. 331**
**ISBN: 978-9952-28-636-6**

# MDB ölkələrində insan və vətəndaşın toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlərin təhlili

**UOT: 343.44**

**Əlizadə Nuridə Elton qızı**
Ədliyyə Akademiyasının baş məsləhətçisi,
I dərəcəli ədliyyə qulluqçusu,
Məhkəmə Ekspertizası Mərkəzinin “Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ” ixtisası üzrə dissertantı
alizadenuride91@gmail.com

## ANNOTASİYA

Məqalədə MDB ölkələrinin cinayət qanunvericiliyində insan və vətəndaşın toxunulmazlıq hüquqları əleyhinə cinayətlər araşdırılmışdır. Şəxsi həyatın toxunulmazlığı, yazışma sirri və mənzil toxunulmazlığının pozulması barədə məsələlər müqayisəli təhlil olunmuş, maddələr qarşılaşdırılmış və ölkələrin cinayət məcəllərində sözügedən cinayətlərin oxşar və fərqli cəhətləri tədqiq edilmişdir.

**Açar sözlər:** MDB ölkələri, şəxsi həyatın toxunulmazlığı, mənzil toxulunmazlığı, yazışma sirrinin pozulması

Müstəqil Dövlətlər Birliyi (MDB) - iştirakçı dövlətlər arasında qarşılıqlı bərabərhüquqlu və faydalı əməkdaşlığa xidmət etmək üçün fəaliyyət göstərən regional dövlətlərarası təşkilatdır. MDB 8 dekabr 1991-ci il tarixində Belarus Respublikası, Rusiya Federasiyası və Ukrayna tərəfindən Minsk şəhərində imzalanmış “Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında Saziş” əsasında təsis edilmişdir. 24 sentyabr 1993-cü il tarixində MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının MDB-yə üzv qəbul olunmasına dair qərar qəbul edilmişdir.

Azərbaycan Respublikası MDB çərçivəsində Ermənistan istisna olmaqla, digər bütün üzv ölkələrlə müxtəlif sahələrdə, xüsusən mədəniyyət, humanitar, elm və digər sahələrdə uğurlu əməkdaşlıq həyata keçirir. Azərbaycan MDB daxilində aparılan əməkdaşlıq çərçivəsində öz milli maraqlarını rəhbər tutur. MDB keçmiş SSRİ ölkələrinin əksəriyyətinin özündə birləşdirir. Hal-hazırda MDB-yə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan daxildir. Türkmənistan isə MDB-nin müşahidəçi üzvüdür.

Sovet İttifaqının dağılması ilə müstəqillik əldə etmiş ölkələrin hüquqi strukturunda müəyyən dəyişikliklər olmuşdur. Postsovet ölkələrinin köhnə ideoloji sistemdən imtina edərək fərqli siyasi quruluşu üstünlük vermələri də bu hüquqi dəyişimə əsas verən amillərdən olmuşdur. Müstəqilliyin ilk illərində Sovet İttifaqı dövründən qalan qanunvericilik sonrakı illərdə yeni konstitusiya və qanunlarla əvəz edilmişdir. Postsovet ölkələrində yeni hüquqi tənzimləmələr həyata keçirilmişdir ki, onlardan ən əsası da cinayət qanunvericiliyi ilə bağlıdır. Sovet cinayət hüququnun prinsiplərini və

əsas elementlərini özündə ehtiva edən qanun “SSRİ və İttifaq Respublikaların cinayət qanunun əsasları” adlanırdı və o zaman ittifaq ölkələrin cinayət qanunvericilikləri də ona uyğunlaşdırılmışdı.

Müstəqillik əldə etdikdən sonra postsovet ölkələrinin yeni cinayət qanunları qəbul edilsə də, əksəriyyəti arasında oxşarlıqlar mövcud olmuşdur. Biz bu məqalədə MDB-yə daxil olan dövlətlərin cinayət qanunvericiliyində şəxsi və ailə həyatına hörmət hüququnun necə tənzimləndiyini araşdıracayıq. İlk növbədə qeyd edək ki, Azərbaycan Respublikasının Konstitusiyasının 32-ci və 33-cü maddələrində şəxsi toxunulmazlıq, yazışma sirri və mənzil toxunulmazlığı barədə bəhs olunub. Şəxsi toxunulmazlıq hüququ adlanan Konstitusiyanın 32-ci maddəsinə bir neçə dəfə əlavə və dəyişiklik olunub. Sözügedən hüquqlar Konstitusiya ilə yanaşı bir çox qanunvericilik aktlarında təsbit olunmuşdur. Konstitusiyanın 32-ci və 33-cü maddələrində nəzərdə tutulmuş hüquqların pozulmasına görə müvafiq olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (CM) 155, 156 və 157-ci maddələrində məsuliyyət nəzərdə tutulmuşdur. Belə ki, CM-nin 155-ci maddəsinə əsasən yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma cinayəti min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Bu maddədə ağırlaşdırıcı hallar nəzərdə tutulmayıb.

Şəxsi həyatın toxunulmazlığını pozma adlanan 156-cı maddəyə əsasən, şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması cinayət hesab olunur və bu əməlin törədilməsinə görə min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Həmin cinayətin tövsifedici əlamətlərinə vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə eyni əməlin törədilməsi aiddir. Bu halda sözügedən cinayət üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Mənzil toxunulmazlığını pozma adlanan 157-ci maddəyə görə isə, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan, mənzildə yaşayanın iradəsi ziddinə mənzilə daxil olma min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eyni əməllərin zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədilməsi və vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi sözügedən cinayətin tövsifedici əlamətlərinə daxildir. Birinci halda əməl iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır, ikinci halda isə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Mənzil sözünün açıqlaması CM-də verilməsə də, digər qanunlarda onun anlayışını tapa bilərik. Belə ki, Cinayət Prosessual Məcəlləsi və Polis Haqqında Qanuna görə yaşayış yeri dedikdə — bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutası və ya uzaq səfərdə olan qatarın kupesi başa düşülür. Bunlardan əlavə qanunun məqsədləri üçün

yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, çay və dəniz gəmisini əhatə edir Azərbaycan Respublikasının Mənzil Məcəlləsində yaşayış sahəsi mənzil hüququnun obyekti olsa da, mənzil yaşayış sahəsinin bir növü kimi nəzərdə tutulur. Yaşayış sahəsinin əsas təyinatı həmin sahədə insanların yaşamasıdır

Müqayisə üçün digər MDB dövlətlərinin cinayət qanunvericiliyinə nəzər salaq.

Belarus Respublikasının CM-nin IV bölməsinin 23-cü fəsli insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər adlanır. Bu fəsildə 202 və 203-cü maddələr şəxsi toxunulmazlığın pozulması ilə bağlı cinayətlərə həsr edilib. "Vətəndaşların mənzil və digər qanuni mülkiyyətlərinin toxunulmazlığının pozulması" adlanan 202-ci maddəyə əsasən mənzildə yaşayanların iradəsi əleyhinə mənzilə qanunsuz daxil olma və ya vətəndaşların qanuni mülkiyyətinin toxunulmazlığının hər hansı digər şəkildə pozulması cinayət məsuliyyəti yaradır. Sözügedən cinayət ictimai işlər, cərimə və ya həbslə cəzalandırılır. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz vəzifə səlahiyyətlərindən istifadə etməklə törədildikdə cərimə və ya müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya həbslə cəzalandırılır. Lakin bu maddənin sanksiyasında cəzanın həddi nəzərdə tutulmamışdır.

Belarus Respublikasının CM-nin 203-cü maddəsinə görə, vətəndaşların yazışmalarının, telefon və ya digər danışıqlarının, poçt, teleqraf və ya digər rabitə vasitələrinin sirrini qəsdən qanunsuz olaraq pozma ictimai işlər və ya cərimə və ya bir ilədək müddətə islah işləri və ya həbs ilə cəzalandırılır. Eyni əməllər məxfi məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə və ya vəzifəli şəxs tərəfindən öz vəzifə səlahiyyətlərindən istifadə etməklə törədildikdə cərimə və ya müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya həbs və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Şəxsi həyat və şəxsi məlumatlarla bağlı qanunsuz hərəkətlər adlı $203^1$-cü maddədə deyilir: Başqa şəxsin razılığı olmadan onun şəxsi həyatı haqqında məlumatların qəsdən qanunsuz toplanılması, verilməsi vətəndaşın hüquqlarına, azadlıqlarına və qanuni mənafelərinə əhəmiyyətli zərər vurduqda ictimai işlər və ya cərimə və ya iki ilədək müddətə həbs və ya azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Sanksiyada cərimənin məbləği göstərilmir, lakin Belarus cinayət qanunvericiliyinə əsasən cərimənin məbləği törədilmiş cinayətin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən və məhkumun maddi vəziyyətindən asılı olaraq hökm çıxarıldığı gün müəyyən edilmiş əsas məbləğin ölçüsü nəzərə alınmaqla otuzdan minə qədər əsas vahidlə müəyyən edilir. Həmin maddənin 2-ci hissəsinə əsasən başqa şəxsin şəxsi həyatı və (və ya) şəxsi məlumatları haqqında məlumatın onun razılığı olmadan qəsdən qanunsuz yayılması və bunun nəticəsində vətəndaşın hüquqlarına, azadlıqlarına və qanuni mənafelərinə əhəmiyyətli zərər vurma üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya cərimə ilə eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin hərəkətlərin şəxsə və ya onun qohumlarına qarşı öz xidməti fəaliyyətini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar törədilməsi tövsifedici əlamət kimi nəzərdə tutulur. Göründüyü kimi, Belarus Respublikasının CM-də düzgün olaraq şəxsi məlumatların yayılmasının zərərçəkənə əhəmiyyətli zərər vurursa daha ağır nəticələrə səbəb olur. Burada əhəmiyyətli zərərin nə olduğu açıqlanmır.

Belarus cinayət qanunvericiliyinə görə fərdi məlumatları emal edən şəxs tərəfindən fərdi məlumatların mühafizəsini təmin edən tədbirlərə əməl edilməməsi, ehtiyatsızlıqdan onların yayılmasına və ağır nəticələrə səbəb olduqda cərimə və ya müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya həbs və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [2, m.$203^1$].

MDB-nin üzv dövlətlərdən biri olan Qazaxıstan Respublikasının CM-də şəxsi toxunulmazlığın pozulması ilə bağlı maddələrə nəzərə yetirək. Qazaxıstan Respublikasının CM-nin xüsusi hissəsinin 3-cü bölməsi insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər adlanır. Burada 147, 148 və 149-cu maddələr haqqında danışdığımız cinayətlərə həsr olunub. 147-ci maddə şəxsi həyatın toxunulmazlığının və şəxsi məlumatlar və onların mühafizəsi haqqında Qazaxıstan Respublikasının qanunvericiliyinin pozulması adlanır. Belə tədbirlərin görülməsi həvalə edilmiş şəxs tərəfindən fərdi məlumatların mühafizəsi tədbirlərinə əməl edilməməsi, əgər bu əməl şəxslərin hüquq və qanuni mənafelərinə əhəmiyyətli zərər vurmuşdursa, o cümlədən, şəxsin razılığı olmadan onun haqqında şəxsi və ya ailə sirrini təşkil edən məlumatların qanunsuz toplanması və emalı (yayılması istisna olmaqla) nəticəsində şəxsin hüquqlarına və qanuni mənafelərinə əhəmiyyətli zərər vurma cinayət məsuliyyəti yaradır. Göstərilən əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya gizli şəkildə məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə və ya elektron informasiya ehtiyatlarına, informasiya sisteminə qanunsuz daxil olmaq və ya elektron informasiya sisteminə daxil olan informasiyanı qanunsuz ələ keçirmək yolu ilə törədildikdə; telekommunikasiya şəbəkəsi və ya özü üçün və ya başqa şəxslər və ya təşkilatlar üçün, habelə bu şəxsin xidməti fəaliyyət göstərməsi və ya peşə və ya ictimai fəaliyyət göstərməsi ilə əlaqədar şəxsə və ya onun qohumlarına münasibətdə fayda və üstünlüklər əldə etmək məqsədi ilə belə fəaliyyətin qarşısını almaq və ya onun qisasını almaq məqsədi törədildikdə ağırlaşdırıcı hallara səbəb olur və sanksiyanın da həddi artır. Belə ki, bu zaman iki ildən beş illədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur [3, m.147].

Cinayətin digər tövsifedici əlamətləri sözügedən hərəkətlərin kütləvi çıxışda, ictimaiyyətə nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitələrində və ya telekommunikasiya şəbəkələrindən istifadə etməklə, o cümlədən internet vasitəsilə, habelə bu şəxsin xidməti fəaliyyət göstərməsi və ya peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar şəxsə və ya onun qohumlarına münasibətdə və ya belə fəaliyyətə mane olmaq və ya qisas almaq məqsədi ilə törədilməsi hesab olunur.

Qazaxıstan Respublikasının CM-nin 148-ci maddəsinə görə fiziki şəxslərin yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və ya digər rabitə vasitələrinin sirrinin qanunsuz pozulması cinayət məsuliyyəti yaradır. Eyni əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən və ya gizli şəkildə məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə və ya elektron informasiya ehtiyatlarına, informasiya sisteminə qanunsuz daxil olmaq və ya telekommunikasiya şəbəkələri üzərindən ötürülən məlumatları qanunsuz ələ keçirməklə törədildikdə isə sanksiyanın həddi artır. Birinci halda iki min aylıq hesablama göstəricisinədək miqdarda cərimə və ya eyni miqdarda islah işləri və ya altı yüz saatadək müddətə ictimai işlərə cəlb etməklə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırsa, ikinci halda əməl iki ildən beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Mənzil toxunulmazlığının pozulmasını nəzərdə tutan maddəyə əsasən mənzildə yaşayan şəxsin iradəsi əleyhinə oraya qanunsuz daxil olma cinayət hesab olunur. Həmin cinayətin tövsifedici əlamətlərinə aşağıdakılar aiddir: eyni əməllərin zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilməsi; bir qrup şəxs tərəfindən törədilməsi; gecə vaxtı törədilməsi; qanunsuz axtarış və ya mənzildən qanunsuz çıxarılmaqla törədilməsi; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi [3, m.149].

Növbəti MDB ölkəsi olan Qırğız Respublikasının CM-nə nəzər yetirək. CM-nin IV bölməsinin 27-ci fəsli mülki və digər insan hüquqlarına qarşı cinayətlər adlanır. Bu fəslin 3 maddəsində haqqında danışdığımız cinayətlərdən bəhs olunur. 190-cı maddəyə əsasən qanunla müəyyən edilmiş hallar istisna olmaqla, şəxsin razılığı olmadan onun şəxsi həyatı haqqında məxfi məlumatların qanunsuz toplanması, saxlanması, istifadəsi və yayılması cinayət hesab olunur. Digər məcəllələrdən fərqli olaraq burada qanunla müəyyən edilmiş hallar istisna olmaqla ifadəsi işlədirilir.

Kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitələrində və ya digər ictimai çıxışlarda şəxsi və ya ailə sirlərindən qanunsuz istifadə və ya onların yayılması, habelə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi bir ildən üç ilədək müddətə islah işləri və ya minimum aylıq əmək haqqının beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya iki il müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin Məcəllənin 193-cü maddəsi yazışma sirrinin pozulması adlanır. Burada qeyd olunur ki, rabitə vasitəsi ilə və ya kompüterdən istifadə etməklə ötürülən yazışmaların, telefon və digər danışıqların, poçt, teleqraf, elektron və digər mesajların sirrinin pozulmasına görə qırx saatdan yüz saatadək ictimai işlər və ya iki aydan bir ilədək müddətə islah işləri və ya minimum aylıq əmək haqqının iki yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər öz qulluq mövqeyindən və ya gizli şəkildə məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə törədildikdə tövsifedici hal hesab olunur.

Mənzil toxunulmazlığının pozulması adlanan 194-cü maddədə deyilir: şəxsin mülkiyyətində olan yaşayış yerinə və ya digər obyektlərə onun iradəsinə zidd olaraq qanunsuz daxil olma iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Lakin eyni əməllər fiziki zorakılıq tətbiq etməklə və ya onun tətbiqi hədəsi ilə törədildikdə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

MDB-yə daxil olan Moldova Respublikasının CM-nin Xüsusi hissəsinin vətəndaşların siyasi, əmək və digər konstitusiya hüquqları əleyhinə cinayətlər adlanan V fəslində 3 maddə toxunulmazlıq hüquqları əleyhinə cinayətlərə həsr olunub. Şəxsi həyatın toxunulmazlığını pozma adlanan 177-ci maddədə başqa şəxsin şəxsi və ya ailə sirrini təşkil edən şəxsi həyatı haqqında qanunla qorunan məlumatların onun razılığı olmadan qanunsuz toplanması və ya qəsdən yayılması 650 şərti vahidə qədər miqdarda cərimə və ya 180 saatdan 240 saatadək müddətə pulsuz ictimai işlər ilə cəzalandırılır. Bu məlumatları şəxsin razılığı olmadan, məxfi şəkildə əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə qanunsuz olaraq toplamaq, o cümlədən, ictimai çıxışda və kütləvi informasiya vasitələrində yaymaq və xidməti mövqeyindən istifadə etməklə törətmək daha ağır nəticələrə səbəb olur.

Yazışma sirrinin pozulması 178-ci maddədə nəzərdə tutulub. Orada deyilir ki, qanuna zidd olaraq məktubların, teleqramların, bağlamaların və digər poçt göndərişlərinin, telefon danışıqlarının və teleqraf mesajlarının sirrinin pozulması cinayət məsuliyyəti yaradır. Həmin əməlin aşağıdakı tövsifedici əlamətləri nəzərdə tutulmuşdur:

a) qulluq mövqeyindən istifadə etməklə;

b) məxfi məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə;

c) mütəşəkkil cinayətkar qrupun və ya cinayətkar təşkilatın maraqları naminə törədilməsi.

Mənzil toxunulmazlığını mühafizə edən 179-cu maddəyə əsasən şəxsin razılığı olmadan şəxsin yaşayış yerinə və ya olduğu yerə qanunsuz daxil olma və ya orada qanunsuz qalma və ya

şəxsin xahişi ilə oradan çıxmaqdan imtina etmə, habelə onların qanunsuz axtarışı və yoxlanılması şərti maliyyə vahidin 650 mislinədək miqdarda cərimə və ya 100 saatdan 200 saatadək müddətə pulsuz ictimai işlər və ya 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər zor tətbiq etməklə və ya onun tətbiqi hədəsi ilə törədildikdə, qulluq mövqeyindən istifadə etməklə törədildikdə, mütəşəkkil cinayətkar dəstə və ya cinayətkar təşkilat tərəfindən törədildikdə daha ağır nəticələrə səbəb olur. Burada digər məcəllələrdən fərqli olaraq, mənzilə qanunsuz daxil olmaqla yanaşı, mənzildən çıxmamaq da cinayət məsuliyyəti yaradır.

MDB ölkələri qrupuna daxil olan Özbəkistan Respublikasının CM-nin Xüsusi hissəsinin birinci bölməsinin VII fəslində vətəndaşların konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərdən bəhs olunur. Həmin fəslin 141-ci maddəsinə görə, şəxsin şəxsi və ya ailə sirrini təşkil edən məlumatların onun razılığı olmadan qanunsuz olaraq toplanması və ya yayılması, eyni əməllərə görə inzibati tənbeh tətbiq edildikdən sonra törədildikdə aylıq əmək haqqının əlli mislindən yüz mislinədək miqdarda cərimə və ya üç yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eyni əməllər:

a) ağır nəticələrə səbəb olduqda;

b) tamah məqsədilə törədildikdə;

c) təhlükəli residivist tərəfindən törədildikdə isə ağırlaşdırıcı hallar yaranır [6, m.141].

$141^2$-ci maddə şəxsi məlumatlar haqqında qanunvericiliyin pozulması adlanır.

Bu maddəyə əsasən Özbəkistan Respublikasının ərazisində yerləşən fərdi məlumat bazalarının dövlət reyestrində qeydə alınmış şəxsi məlumatların qanunsuz toplanması, sistemləşdirilməsi, saxlanması, dəyişdirilməsi, əlavə edilməsi, istifadəsi, yayılması, ötürülməsi və məhv edilməsi, habelə informasiya texnologiyalarından istifadə etməklə Özbəkistan Respublikasının vətəndaşlarının şəxsi məlumatlarının emalına riayət edilməməsi, internet ümumdünya informasiya şəbəkəsində texniki vasitələrdə fərdi məlumatların toplanması, sistemləşdirilməsi və saxlanmasına aid tələblərin pozulması eyni əməllərə görə inzibati tənbeh tətbiq olunduqdan sonra törədilərsə cinayət məsuliyyəti yaradır. Sözügedən əməl minimum aylıq əmək haqqının yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən hüquqdan məhrum etmə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır. Sözügedən maddənin ağırlaşdırıcı hallarına aid edilir:

a) bir qrup şəxs tərəfindən əvvəlcədən razılaşdırılmaqla törədildikdə;

b) təkrar və ya təhlükəli residivist tərəfindən törədildikdə;

c) tamah və ya digər çirkin məqsədlərlə törədildikdə;

ç) qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

e) ağır nəticələrə səbəb olduqda.

Vətəndaşların mənzil toxunulmazlığı hüququnun pozulması adlı 142-ci maddəsinə əsasən mənzilə orada yaşayan şəxslərin iradəsinə zidd olaraq zorakılıqla müşayiət olunan qanunsuz müdaxilə üç ilədək müddətə islah işləri və ya iki ildən beş ilədək azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yazışmaların, telefon danışıqlarının, teleqraf və ya digər məlumatların sirrini qəsdən pozma eyni əməllərə görə inzibati tənbeh tətbiq edildikdən sonra törədildikdə cinayət məsuliyyəti yaradır.

Rusiya Federasiyasının CM-nin xüsusi hissəsinin VII bölməsinin 19-cu fəsli insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə cinayətlər adlanır. Məcəlləyə əsasən şəxsin şəxsi və ya ailə sirrini təşkil edən məlumatların onun razılığı olmadan qanunsuz olaraq toplanılması, yayılması və ya bu məlumatların kütləvi tamaşada, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində yayılması 200 min rubladək miqdarda cərimə və ya 18 aya qədər müddətə məhkumun əmək haqqı və ya maaşı və ya hər hansı digər gəliri miqdarında cərimə və ya üç yüz

altmış saata qədər məcburi işlər və ya bir ilədək islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə məcburi əmək və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ayadək müddətə həbs və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi tövsifedici hal hesab olunur [7, m.137].

Digər MDB ölkələrinin cinayət məcəllələrindən fərqli olaraq, burada yetkinlik yaşına çatmayanın şəxsi toxunulmazlıq hüququnun pozulması daha ağır nəticələrə səbəb olur. Belə ki, Kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitələrində və ya informasiya-telekommunikasiya şəbəkələrində cinayət işi üzrə 16 yaşına çatmamış zərər çəkmiş şəxsin şəxsiyyətinə işarə edən məlumatı və ya onun cinayətlə əlaqədar məruz qaldığı və yetkinlik yaşına çatmayan şəxsin sağlamlığına zərər vurulmasına, yaxud yetkinlik yaşına çatmayan şəxsdə psixi pozuntuya, yaxud digər ağır nəticələrə səbəb olmuş fiziki və ya mənəvi iztirabların təsvirini özündə əks etdirən məlumatı qanunsuz yayma cinayət məsuliyyəti yaradır.

Yazışma sirrinin pozulmasını özündə əks etdirən 138-ci maddədə göstərilir ki, vətəndaşların yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və ya digər məlumatlarının sirrinin pozulmasına görə səksən min rubladək miqdarda cərimə və ya altı aya qədər müddətə məhkumun əmək haqqı və ya maaşı və ya hər hansı digər gəliri miqdarında cərimə və ya üç yüz altmış saatadək müddətə icbari işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Bu əməllərin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi sanksiyanın həddinin artmasına səbəb olur.

Digər MDB ölkələrindən fərqli olaraq Rusiya Federasiyasının CM-də şəxsi həyatın toxunulmazlığını pozma əməlini nəzərdə tutan maddələrlə yanaşı gizli məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin qanunsuz dövriyyəsini nəzərdə tutan maddə var. Belə ki, məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələri qanunsuz istehsal etmə, əldə etmə və (və ya) satma cinayət hesab olunur [7, m.138.1]. Eyni zamanda maddənin qeyd hissəsində məxfi məlumat əldə etmək məqsədilə nəzərdə tutulmuş xüsusi texniki vasitələrə nələrin aid olduğu qeyd olunur. Bunlara aiddir: binalara və (və ya) digər obyektlərə daxil olmaq üçün qurğular, sistemlər, komplekslər, məxfi funksiyanı təmin etmək üçün xassələr verilmiş elektron komputerlər və digər elektron cihazların proqram təminatı (və ya) sahibinin xəbəri olmadan məlumatın məxfi alınması funksiyasını təmin etmək və ya ona daxil olmaq üçün qəsdən xassələr verilmiş məlumatın saxlanması, emalı və (və ya) ötürülməsinin həyata keçirən texniki vasitələr. Aşağıdakılar isə məxfi məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrə aid edilmir: sərbəst dövriyyədə olan cihazlar, sistemlər, komplekslər, qurğular, audioyazı, videoyazı, fotofiksasiya və geolakasiya funksiyalarını daşıyan məişət alətləri, bu cür funksionallıq üçün açıq yerləşdirilmiş ekran elementləri, onların funksiyasını üzərində götərən displey elementləri olan proqram təminatı, əgər bu şəxsi, ailə, kommersiya və ya qanunla qorunan digər sirri təşkil edən məlumat sahibinin xəbəri olmadan əldə etməyə, toplamağa imkan verən üsullara malik deyilsə.

Mənzil toxunulmazlığının pozulmasını nəzərdə tutan normaya əsasən mənzilə qanunsuz daxil olma, orada yaşayan şəxsin iradəsi əleyhinə törədildikdə 40 min rubla qədər miqdarda cərimə və ya üç aya qədər müddətə məhkumun əmək haqqı və ya maaşı və ya hər hansı digər gəliri miqdarında cəriməvə ya üç yüz altmış saatadək müddətə məcburi işlər və ya bir ilədək müddətə islah işləri və ya üç ayadək müddətə həbs ilə cəzalandırılır [7, m.139]. Bu əməllər zor tətbiq etməklə və ya onun tətbiqi hədəsi ilə törədilməsi, o cümlədən şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi zaman sanksiyanın həddi artır.

Rusiya Fedrasiyasının CM-də mənzil sözünün mənası aydınlaşdırılır. Belə ki, məcəlləyə əsasən, mənzil dedikdə, tərkibinə yaşayış və qeyri-yaşayış sahələri daxil olan fərdi yaşayış binası, mülkiyyət formasından asılı olmayaraq, mənzil fonduna daxil olan, daimi və ya müvəqqəti yaşamaq üçün yararlı olan, habelə yaşayış fonduna daxil olmayan, lakin müvəqqəti yaşamaq üçün nəzərdə tutulmuş digər binalar və ya tikililər başa düşülür.

Digər MDB ölkəsi olan Tacikistan Respublikasının CM-nə də nəzər yetirək. Məcəlləyə əsasən başqa şəxsin şəxsi və ya ailə sirrini təşkil edən şəxsi həyatı haqqında məlumatların onun razılığı olmadan qanunsuz toplanması və ya yayılması və ya bu cür məlumatların ictimai çıxışda, əsərdə, kütləvi informasiya vasitələrində və ya internetdə yayılması, əgər bu əməllər tamah niyyətilə törədilərsə və ya digər şəxsi mənafeyinə görə vətəndaşın hüquq və qanuni mənafelərinə zərər vurarsa yüz iyirmi saatdan yüz səksən saatadək müddətə məcburi işlər və ya minimum əmək haqqının iki yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya dörd aya qədər həbs ilə cəzalandırılır. Eyni əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə minimum aylıq əmək haqqının beş yüz mislindən səkkiz yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır. Göründüyü kimi Tacikistan Respublikasının CM-də şəxsi toxunulmazlıq hüququnun pozulması yalnız tamah niyyətilə törədildikdə və ya vətəndaşın hüquq və qanuni mənafelərinə zərər vurarsa cinayət məsuliyyəti yaradır [8, m.144].

146-cı maddəyə görə vətəndaşların yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və ya digər məlumatların sirrinin pozulması cinayət hesab olunur. Bu əməlin şəxs tərəfindən öz qulluq mövqeyindən və ya gizli şəkildə məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə törədilməsi, o cümlədən gizli şəkildə məlumat əldə etmək üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin satışı məqsədi ilə qanunsuz istehsalı, satılması və ya əldə edilməsi tövsifedici hal sayılır.

Həmin Məcəllənin 147-ci maddəsi mənzil toxunulmazlığını mühafizə edir və qeyd olunur ki, yaşayış yerində yaşayan şəxsin iradəsinə zidd olaraq oraya qanunsuz daxil olma və ya kiminsə evindən məhrum edilməsi min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Bu əməlin ağırlaşdırıcı hallarına aiddir:

a) zor tətbiq etməklə və ya onun tətbiqi hədəsi ilə törədilmə;

b) qulluq mövqeyindən istifadə etməklə törədilmə;

c) yaşayış məntəqələrində qanunsuz dinləmə və ya digər xüsusi qurğular quraşdırmaqla törədilmə.

Rusiya Fedrasiyasının CM-də olduğu kimi, Tacikistan Respublikasının CM-də də mənzil sözünün anlayışı verilir. Maddənin qeyd hissəsində göstərilir ki, mənzil dedikdə, tərkibinə yaşayış və qeyri-yaşayış sahələri daxil olan fərdi yaşayış binası, mülkiyyət formasından asılı olmayaraq, mənzil fonduna daxil olan yaşayış sahəsi və daimi və ya müvəqqəti yaşamaq üçün yararlı, habelə yaşayış fonduna daxil olmayan, lakin müvəqqəti yaşamaq üçün nəzərdə tutulmuş digər binalar və ya tikililər nəzərdə tutulur.

MDB-də müşahidəçi qismində fəaliyyət göstərən Türkmənistanın Cinayət Məcəlləsinin 7-ci bölməsinin 19-cu fəsli insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər adlanır. Burada 146-cı maddədə şəxsi həyatın toxunulmazlığını pozma cinayəti nəzərdə tutulub. Başqa şəxsin şəxsi və ya ailə sirrini təşkil edən şəxsi həyat haqqında məlumatların onun razılığı olmadan qanunsuz olaraq toplanması, saxlanması və ya yayılması, bu hüquqpozmalara görə inzibati tənbeh tətbiq edildikdən sonra bir il ərzində təkrar törədildikdə, orta aylıq əmək haqqının beş mislindən on mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Həmin məlumatların kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində yayılması orta aylıq əmək haqqının on mislindən iyirmi mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır.

147-ci maddəyə əsasən vətəndaşların yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və ya digər məlumatlarının sirrini qəsdən pozma, əgər bu xətalara görə inzibati tənbeh tətbiq edildikdən sonra bir il ərzində təkrar törədilərsə və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilərsə orta aylıq əmək haqqının beş mislindən on mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Mənzil toxunulmazlığının pozulması adlanan maddəyə görə mənzilə qanunsuz daxil olma və ya mənzil toxunulmazlığının başqa cür pozulması, orada yaşayan şəxsin iradəsinə zidd törədilməsi o halda cinayət məsuliyyəti yaradır ki, bu xətalara görə inzibati tənbeh tətbiq edildikdən sonra bir il ərzində təkrar törədilmiş olsun, və ya fiziki zorakılıq tətbiq etməklə və ya onun tətbiqi hədəsi ilə və ya qulluq mövqeyindən istifadə etməklə törədilmiş olsun [9, m.148].

Digər MDB ölkələrindən fərqli olaraq, Özbəkistan və Türkmənistan cinayət qanunvericiliyində şəxsi toxunulmazlıqla bağlı cinayətlərin tərkibində fərq ondan ibarətdir ki, maddədə nəzərdə tutulmuş əməllər yalnız eyni əməllərə görə inzibati tənbeh tətbiq olunduqdan sonra törədilərsə cinayət məsuliyyəti yaradır. Belə ki, bizim və digər MDB ölkələrinin qanunvericiliyindən fərqli olaraq Özbəkistan və Tacikistan Respublikasının İnzibati Xətalar Məcəlləsində şəxsi həyatın və yazışma sirrinin toxunulmazlığının pozulması inzibati məsuliyyətə səbəb olur.

Bizim qanunvericilikdən fərqli olaraq digər MDB ölkələrinin CM-də haqqında bəhs etdiyimiz cinayətləri nəzərdə tutan maddələrdə "vətəndaş" anlayışından istifadə olunur. Yəni yalnız dövlətlə siyasi və hüquqi bağlılığı olan şəxslərin – vətəndaşların sözügedən hüquqlarının pozulması məsuliyyət yaradır.

Müqayisəli təhlil zamanı onu da qeyd etmək lazımdır ki, araşdırdığımız məcəllələrdən yalnız Azərbaycan Respublikasının CM-də və Belarus Respublikasının CM-nin bir maddəsində tövsifedici əlamətlər sırasında "vəzifəli şəxs" sözü istifadə olunur. Digər məcəllələrdə isə yalnız qulluq mövqeyindən istifadə etməklə sözügedən əməllərin törədilməsi ağırlaşdırıcı hal yardır, lakin subyektin vəzifəli şəxs olması ilə bağlı müddəa yoxdur.

Qeyd etdiklərimizdən belə nəticə çıxır ki, MDB ölkələrinin cinayət məcəllələrində bəhs etdiyimiz müddəalar cüzi fərqlərlə də olsa ümumən oxşardır. Əsas fərqlər sanksiyaların həddindədir. Azərbaycan CM-dən fərqli olaraq, digər MDB ölkələrində yazışma sirinin pozulmasına görə ağırlaşdırıcı əlamətləri nəzərdə tutulmuşdur. Araşdırdığımız cinayətlərə görə ən ciddi sanksiya nəzərdə tutan ölkə Qazaxıstandır, belə ki, Qazaxıstan Respublikasının CM-də sözügedən cinayətlərə görə nəzərdə tutulan sanksiyanın ən ağır həddi 7 ilə qədər azadlıqdan məhrumetmə cəzasıdır. Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə daha yaxın olan sanksiya həddi isə Belarus CM-də nəzərdə tutulmuşdur. Yalnız Rusiya Fedrasiyasının CM-də sözügedən əməllərin yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi də ayrıca olaraq qeyd olunur. Nəzər yetirdiyimiz cinayət məcəllələrinin hər birində cərimə cəzası əsas cəza kimi alternativ cəza olaraq nəzərdə tutulub. Azərbaycan Respublikasının CM-də şəxsi həyatın, yazışma sirrinin və mənzilin toxunulmazlığı ilə bağlı cinayətlərin tərkibi daha sadə formada göstərilir.

Digər MDB ölkələrindən fərqli olaraq, Özbəkistan Respublikasının CM-də bəhs etdiyimiz cinayətləri nəzərdə tutan fəsildə həm də belə bir norma nəzərdə tutulub ki, şəxsi həyatın toxunulmazlığını pozma, fərdi məlumatlar haqqında qanunvericiliyi pozma və yazışma sirrini pozma cinayətini törətmiş şəxs təqsirini etiraf etdikdə, zərərçəkmiş şəxslə barışdıqda və vurulmuş zərəri ödədikdə cinayət məsuliyyətindən azad edilə bilər [6, m.66[1]].

Şəxsi həyatın toxunulmazlığı hüququ müasir dövrümüzdə daha aktual hesab olunan məsələdir. Belə ki, son dövrlərdə bu hüququn daha çox pozulması hallarına rast gəlinir. Hesab edirik ki, Azərbaycan Respublikasının CM-də sözügedən cinayətlərə görə nəzərdə tutulmuş ağırlaşdırıcı halları yaradan tərkib əlamətləri genişləndirilməli, həmçinin sanksiyaların həddi də müvafiq olaraq artırılmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi https://www.e-qanun.az/framework/46947#_Toc89058513
2. Уголовный кодекс Республики Беларусь https://online.zakon.kz/Document/?doc_id=30414984&doc_id2=30414984#pos=58;-108&pos2=52;-110
3. Уголовный Кодекс Республики Казахстан https://online.zakon.kz/Document/?doc_id=31575252
4. Уголовный Кодекс Кыргызской Республики http://cbd.minjust.gov.kg/act/view/ru-ru/112309
5. Уголовный Кодекс Республики Молдова https://www.legis.md/cautare/getResults?doc_id=125325&lang=ru
6. Уголовный Кодекс Республики Узбекистан https://lex.uz/docs/111457
7. Уголовный кодекс Российской Федерации http://www.consultant.ru/document/cons_doc_LAW_10699/
8. Уголовный Кодекс Республики Таджикистан http://ncz.tj/content/уголовный-кодекс-республики-таджикистан
9. Уголовный кодекс Туркменистана https://continent-online.com/Document/?doc_id=31295286


## Analysis of crimes against the rights of human and civil immunity in the CIS countries


**Nurida Alizade Elton gizi,**
**Chief Consultant of the Academy of Justice of the Ministry of Justice of the Republic of Azerbaijan,**
**Dissertation of the Center for Forensic Examination of the Ministry of Justice of the Republic of Azerbaijan,**
**Captain of Justice**


### Annotation

In the article, crimes against human and citizen's immunity rights are investigated in the criminal legislation of the CIS countries. The issues of inviolability of the private life, secret of correspondence and the inviolability of housing were comparatively analyzed, articles were compared and the similarities and differences of the mentioned crimes in the criminal codes of the countries were studied.
**Keywords:** CIS countries, inviolability of private life, inviolability of housing, violation of confidentiality of correspondence

## Анализ преступлений против прав человека и гражданской неприкосновенности в странах СНГ

**Нурида Ализаде Элтон гызы**
**Главный Консультант Академии Юстиции Министерства Юстиции Азербайджанской Республики,**
**Диссертант Центра Судебной Экспертизы Министерства Юстиции Азербайджанской Республики**
**капитан юстиции**

### Аннотация

В статье исследуются преступления против права на неприкосновенность человека и гражданина в уголовном законодательстве стран СНГ. Сравнительно проанализированы вопросы неприкосновенности частной жизни, тайны переписки и нарушения неприкосновенности жилища, сопоставлены статьи и изучены сходства и различия названных преступлений в уголовных кодексах стран.
**Ключевые слова:** страны СНГ, неприкосновенность частной жизни, неприкосновенность жилища, нарушение тайны переписки.